# “Xocalını unutmağa haqqımız yoxdur”





***Artıq 25-ci ildir ki, Ermənistan silahlı birləşmələrinin törətdikləri Xocalı faciəsini soydaşlarımız Azərbaycanda və dünyada yaşayan bütün azərbaycanlılar ürək ağrısı və hiddətlə qeyd edirlər. Bakının Xətai rayonunda da icra hakimiyyəti başçısının qərarı ilə hazırlanmış tədbirlər planına uyğun olaraq təhsil, səhiyyə və mədəniyyət müəssisələrində “Xocalı faciəsi-25 il” devizi ilə sisilə tədbirlər keçirilir.***

Rayonun 59 və 265 saylı məktəblərində keçirilən tədbirlər də istisna deyildi. Hadisələrin mahiyyətini, erməni vandalizminin nəticələrini və amansızlıqlarını gənc nəslə çatdırmaq üçün bu məktəblərdə hazırlanmış ədəbi-bədii kompozisiyalar və teatral tamaşaların əsas ifaçıları da elə bu məktəbin şagirdləri idi. Əslində örnək olası bir istiqamətdir.

Hər iki tədbirin təşkilində və keçirilməsində yaxından iştirak edən Xətai Rayon İcra Hakimiyyəti adından başçının müavini Jalə Abdıyeva çıxış edərək bildirdi ki, Xocalı faciəsi insanlığa qarşı törədilmiş cinayət aktıdır və Azərbaycan xalqının soyqırımı faktlarından ən dəhşətlisidir. Ona görə də bu cinayət aktı beynəlxalq aləm tərəfindən öz ədalətli hüquqi qiymətini almalıdır. Azərbaycan dövləti erməni millətçilərinin xalqımıza qarşı törətdiyi cinayətlərin, o cümlədən Xocalı soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması üçün məqsədyönlü və ardıcıl iş aparır. Dünyanın elə bir mötəbər tribunası yoxdur ki, Prezident İlham Əliyev oradan Xocalı faciəsini təcavüzkar erməni millətçilərinin yüzilliklər boyu Azərbaycan xalqına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsi kimi dünya dövlətlərinə və ictimaiyyətinə çatdırmasın.

Bu işdə Heydər Əliyev fondu, xüsusilə, fondun prezidenti Mehriban Əliyevanın da böyük xidmətləri var. Fondun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə “Xocalıya ədalət!” kampaniyası çərçivəsində də hər il silsilə tədbirlər reallaşdırılır. Həyata keçirilən ardıcıl və kompleks tədbirlərin məntiqi nəticəsi olaraq yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının mahiyyəti üzə çıxır və ifşa olunur. Artıq Xocalı qətliamının soyqırımı olması faktı dünyanın bir çox ölkələrinin, beynəlxalq təşkilatların qərar və qətnamələrində əksini tapıb. Meksika, Kolumbiya, Peru, Pakistan, Bosniya və Herseqovina, Rumıniya, Çexiya, İordaniya, Honduras, Qvatemala, Panama, Sudan parlamentləri, eləcə də, ABŞ-ın 20-dən artıq ştatının qanunverici orqanları və İslam Əməkdaşlıq Təşkilatı Xocalı soyqırımını tanıyan və pisləyən sənədlər qəbul ediblər. Amma ən vacibi odur ki, bunu Azərbaycan torpağında dünyaya göz açan hər bir sakin bilməli və unutmamalıdır.

Məktəblərin ikisində də rəsmi çıxışlar çox olmadı. İstər 59 saylı məktəbdə şagirdlərin hazırladığı “Xocalı dərdim”, istərsə də 265 saylı məktəbdə Respublika Uşaq Yaradıcılıq Mərkəzinin yeniyetmə dərnək üzvləri ilə “Günay” uşaq teatr – studiyasının hazırladığı “Xocalı” ədəbi-bədii kompozisiyalarında uşaqlar bütövlükdə faciənin ağrılarını həmyaşıdlarına çatdırmaqla belə əminlik yaratdılar ki, bizdən sonrakı nəsillər bu faciəni heç zaman unutmayacaqlar. Çünki Xocalını unutmağa haqqımız yoxdur.

Maraqlıdır ki, “Xocalıya ədalət!” kampaniyası çərçivəsində şairə -publisist Zərəngiz Dəmirçi Qayalının “Cavab ver” əsəri əsasında səhnələşdirilmiş “Xocalı” ədəbi-bədii kompozisiyasının əsas ifaçıları “Günay” uşaq teatr – studiyasının rusdilli uşaqları idi. Amma ifaları doğma Azərbaycan dilində idi.

***İlqar RÜSTƏMOV,***
***“Xalq qəzeti”***